# Sizin ərizəniz AIHM



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Sizin AİHM-ə ərizəniz:

# Necə müraciət etməli və ərizənizə necə baxılır

Bu sənəd Məhkəmənin İctimaiyyətlə Əlaqələr Şöbəsi tərəfindən hazırlanmışdır. Sənəd Məhkəmə üçün icbari xarakter daşımır. Sənədin məqsədi Məhkəmənin işi barədə ümumi məlumat verməkdir.

Daha ətraflı məlumat üçün Katiblik tərəfindən hazırlanmış (Məhkəmənin www.echr.coe.int internet səhifəsində yerləşdirilən) sənədlərə və xüsusən Məhkəmə Qaydalarına istinad edə bilərsiniz.

**Məhkəməyə təqdim olunmuş ərizələrin böyük əksəriyyəti qəbuledilməz elan edilir. Bu o deməkdir ki, Məhkəmə həmin ərizələri işin mahiyyətini araşdırmadan rədd edir, belə ki, ərizə bütün qəbuledilənlik meyarlarına uyğun gəlmir. Ərizələrin qəbuledilməzliyi barədə qərardad qətidir və ondan şikayət verilə bilməz.**

**Beləliklə, ərizənizin Məhkəmə tərəfindən rədd edilməsini istəmirsinizsə, onun qəbuledilənlik meyarlarına tam cavab verdiyinə əmin olmalısınız. Ərizənizi göndərməzdən əvvəl Məhkəmənin internet səhifəsinə, xüsusilə Qəbuledilənlik meyarları haqqında Təlimata nəzər yetirin.**

## SİZ MƏHKƏMƏYƏ ƏRİZƏ GÖNDƏRMƏK İSTƏYİRSİNİZ

Ərizə formasını Məhkəmənin internet səhifəsindən əldə edə bilərsiniz. Ərizə formasını yükləyin, istisnasız hər bir bəndini doldurun və bütün müvafiq sənədlərin surətləri ilə birlikdə Məhkəməyə göndərin. Sənədlərin əslini göndərməyin, çünki onlar ərizənizə baxıldıqdan sonra sizə geri qaytarılmayacaq. Ərizənin kağız formasını əldə etmək üçün Məhkəməyə müraciət etməyin; vaxta qənaət etmək və ərizənizin Məhkəməyə vaxtında çatmasını təmin etmək üçün ərizə formasını özünüz çap edin (Məhkəmənin internet səhifəsində yerləşdirilən Məhkəməyə ərizənin göndərilməsinə dair Praktiki Təlimata və Ərizə formasının doldurulmasına dair Təlimata nəzər yetirin).

**Məhkəməyə natamam ərizə göndərdiyiniz halda, Məhkəmə ərizənizə baxmaqdan imtina edə bilər, buna görə də ərizə formasının hər bir bəndini diqqətlə doldurmağınız vacibdir.** Ərizə formasının hər hansı bir bəndi lazımi qaydada doldurulmadığı və ya hər hansı məlumat çatışmadığı halda və yaxud lazımi sənədlərin surətlərini əlavə etmədiyiniz halda, Məhkəmə ərizənizə baxmadan onu qeydiyyata almaqdan imtina edə bilər.

Siz Məhkəməyə Avropa Şurasının rəsmi dillərindən birində - fransız və ingilis dilində - və ya Avropa Şurasına üzv olan istənilən Dövlətin rəsmi dilində müraciət edə bilərsiniz.

Ərizənin baxılması  üzrə ilkin mərhələdə vəkillə təmsil olunmaq mütləq deyil. Bununla belə, əgər siz vəkilin xidmətlərindən istifadə etmək qərarına gəlsəniz, vəkilinizə sizi Məhkəmədə təmsil etmək səlahiyyəti verən, lazımi qaydada imzalanmış sənədi Məhkəməyə göndərməlisiniz.

Ərizə formasının hər bir bəndini doldurduqdan sonra onu müvafiq sənədlərin surətləri ilə birlikdə poçtla aşağıda qeyd olunan ünvana göndərin:

**The Registrar**
**European Court of Human Rights**
**Council of Europe**
**F-67075 Strasbourg cedex**

Yaxşı olar ki, ərizənizi sifarişli məktubla göndərəsiniz. Ərizənizi Konvensiyada müəyyən olunmuş müddət çərçivəsində göndərməlisiniz. Məhkəmənin nəzərə alacağı tarix ərizənizi göndərdiyiniz zərfin üzərindəki poçt möhürünün tarixidir. **Mütləq nəzərə alın ki, ərizələr yalnız poçt vasitəsilə göndərilə bilər.**

İstənilən halda, işiniz üzrə ölkədaxili səviyyədə yekun məhkəmə qərarı qəbul edildikdən sonra, ərizənizi **mümkün qədər tez** göndərməyiniz qəti şəkildə tövsiyə olunur.

## ƏRİZƏNİZİ ARTIQ MƏHKƏMƏYƏ GÖNDƏRMİSİNİZ

Ərizəniz hər gün təxminən 1500 məktub daxil olan Məhkəmənin Mərkəzi Poçt şöbəsinə çatacaq. Çox sayda məktub daxil olduğundan, Məhkəmə sizin ərizənizin qəbulunu dərhal təsdiq edə bilməz.

**Ərizənizin çatıb-çatmadığını öyrənmək üçün Məhkəməyə zəng etməyin. Hər hansı əlavə məlumat tələb olunarsa, Məhkəmə sizinlə əlaqə saxlayacaq.**

Mərkəzi Poçt Şöbəsi məktubları ayıracaq və ərizənizi müvafiq hüquqi şöbəyə, yəni əleyhinə şikayət verilmiş Dövlətə qarşı işlərə baxan hüquqi şöbəyə yönləndirəcək. Məsələn, Almaniyaya qarşı şikayət Almaniya işləri ilə məşğul olan hüquqi şöbəyə göndəriləcək, çünki həmin şöbənin əməkdaşları alman dilini bilirlər və bu ölkənin qanunvericiliyinə bələddirlər.

Daha sonra sizin işinizə nömrə veriləcək və hüquqşünas tərəfindən nəzərdən keçiriləcək. Bu, hələ o demək deyildir ki,  Məhkəmə ərizənizi baxılması üçün qəbul edib; bu, sadəcə ərizənizin qeydiyyata alındığını göstərir. **Əgər Məhkəmə sizinlə əlaqə saxlayarsa, siz müəyyən olunmuş vaxt müddətində ona cavab verməlisiniz, əks halda şikayətiniz sadəcə rədd edilə və ya ləğv edilə bilər.**

Məhkəmə işinizə baxmaq üçün zəruri olan bütün məlumatları əldə etdikdən sonra ərizəniz Məhkəmənin tərkiblərindən birinə ötürüləcək.

**Şikayətinizə baxıldığı müddətdə, hətta bu müddətin uzun davam etdiyini düşünsəniz belə, Məhkəmənin sizinlə əlaqə saxlamasını gözləməlisiniz.** Hər il çox sayda (50000-dən yuxarı) ərizələrin daxil olması və Məhkəmə tərəfindən baxılmalı olan daha çox sayda işlərin olması səbəbindən Məhkəmə daxil olan məktub və sənədlərin alındığını təsdiq edə bilmir və ya işinizə təxminən nə zaman baxılacağı barədə məlumat verə bilmir.

Məhkəmədə icraat yazılı qaydada aparılır. Məhkəmənin diqqətinə çatdırmaq istədiyiniz istənilən məlumat yazılı şəkildə göndərilməlidir.

# ŞİKAYƏTİNİZƏ BAXILMASI

## 1. Məhkəmə tərkibi

Məhkəmə işinizə baxmaq üçün bütün zəruri məlumatları əldə etdikdən sonra, işin növündən asılı olaraq ərizəniz Məhkəmənin tərkiblərindən birinə həvalə ediləcək: tək hakimə, Komitəyə və ya Palataya.

- Ərizəniz bütün tələb olunan qəbuledilənlik meyarlarına cavab vermədiyi üçün açıq-aydın qəbuledilməz hesab edilirsə, işinizə **tək hakim** tərəfindən baxılacaq. Bu hakim tərəfindən verilən qəbuledilməzlik barədə qərardad qətidir. Siz qərardad barədə məktub vasitəsilə məlumatlandırılacaqsınız, lakin qərardadın surəti sizə göndərilməyəcək. **Qəbuledilməzlik barədə qərardadı mübahisələndirmək olmaz. Siz həmçinin bu barədə hər hansı əlavə məlumat tələb edə bilməzsiniz. Məhkəmə işi bağlayacaq və müəyyən müddətdən sonra dosyenizi ləğv edəcək.**
- İşiniz təkrar işlər kateqoriyasına aid edilərsə, yəni Məhkəmənin artıq müvafiq Dövlətə qarşı bir sıra işlər üzrə çıxardığı qərarlarda qaldırdığı məsələ ilə bağlıdırsa, ona **3 hakimdən ibarət Komitə** baxacaq. Bu halda, sizə növbəti prosedur haqqında məlumat verən məktub göndəriləcək. **Bir daha xatırladırıq ki, zərurət olduqda, Məhkəmə sizinlə əlaqə saxlayacaq.**
- İşiniz təkrar işlər kategoriyasına aid olmadığı halda, ona **7 hakimdən ibarət Palata** tərəfindən baxılacaq. Palata şikayəti qəbuledilməz elan edə bilər və bu halda qərardad qəti hesab ediləcək. Şikayət qəbuledilən hesab edilərsə, Palata ona mahiyyəti üzrə baxacaq. Lakin bundan əvvəl Palata mövcud şikayət haqqında məlumatlandırmaq və mübahisənin predmeti ilə bağlı yazılı şərhlərini təqdim etməyə imkan vermək məqsədilə ərizəni müvafiq cavabdeh Hökumətə göndərəcək. Bu şərhlər daha sonra sizə göndəriləcək və sizə onlara cavab vermək imkanı veriləcək. İcraatın ilkin mərhələsində vəkil tərəfindən təmsil olunmaq məcburiyyətində olmadığınıza baxmayaraq, bu mərhələdə Məhkəmə sizi vəkil yardımından istifadə etməyə dəvət edəcək. **Bir daha qeyd edək ki, sizinlə Məhkəmə əlaqə saxlayacaq.**
- Məlumat üçün bildiririk ki, ərizələr heç zaman birbaşa olaraq **17 hakimdən ibarət Böyük Palataya** göndərilmir, lakin Palata Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina edə bilər və ya iş məhkəmə icraatının sonrakı mərhələlərində Böyük Palataya yönləndirilə bilər. İş Konvensiyanın şərhinə dair ciddi məsələ qaldırırsa yaxud məsələnin həllinin Məhkəmənin əvvəllər çıxardığı qərara zidd olma riski varsa, Palata Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina edə bilər. İş həmçinin Palatanın qərar çıxarmasından sonrakı 3 ay ərzində istənilən tərəfin ərizəsi əsasında baxılmaq üçün Böyük Palataya göndərilə bilər, lakin Məhkəmə belə müraciətləri yalnız müstəsna hallarda qəbul edir.

## 2. Şikayətə baxılması prosesi nə qədər vaxt tələb edir?

Şikayətin Məhkəmə tərəfindən baxılması üçün təxminən nə qədər vaxtın tələb olunduğunu demək mümkün deyil. Bu, işin növündən, işin baxılması üçün təyin edildiyi məhkəmə tərkibindən, tərəflərin Məhkəməyə lazım olan məlumatları nə qədər tez təqdim etdiklərindən və bir çox başqa amillərdən asılıdır. **Məhkəmə ərizələrə qaldırılan məsələlərin vacibliyini və təxirəsalınmazlığını nəzərə almaqla müəyyən ardıcıllıqla baxır.** Bu, o deməkdir ki, məsələn,ən ciddi işlərə və ya daha geniş miqyasda problemlərin mövcudluğunu aşkara çıxaran işlərin baxılmasına üstünlük veriləcək; bu isə sizin ərizənizdən sonra verilən ərizəyə Məhkəmə tərəfindən niyə daha əvvəl baxıldığını izah edir.

## 3. Dinləmələr

Məhkəmə Palatanın və ya Böyük Palatanın az sayda işləri üzrə (hər il təxminən 30 iş) dinləmələr keçirir. Məhkəmə işiniz üzrə dinləmə keçirmək qərarı alarsa, sizə məlumat veriləcək. Bütün dinləmələr qeydə alınır və onlara Məhkəmənin internet saytında baxmaq olar.

# İCRAATIN BAŞA ÇATMASI

İşin Məhkəmə tərəfindən baxılmasının başa çatmasının müxtəlif variantları var.

## 1. Ərizənin rədd olunması

### ➡ Dosye ləğv olunur

İcraatın əvvəlində Məhkəmə sizinlə əlaqə saxladıqda, siz ümumiyyətlə cavab verməsəniz və ya müəyyən olunmuş müddət ərzində cavab verməsəniz, Məhkəmə hesab edə bilər ki, Siz işiniz üzrə icraatı davam etdirmək niyyətində deyilsiniz və işinizi bağlaya bilər. Sizin dosyeniz ləğv ediləcək və bu qərardan sizin şikayət vermək hüququnuz olmayacaq.

### ➡ İş Məhkəmə işləri siyahısından çıxarılır

İcraatın sonrakı mərhəsində ərizəniz Məhkəmənin təkiblərindən birinə təqdim edildikdən sonra, Məhkəmənin müraciətlərinə müəyyən olunmuş vaxt ərzində cavab vermədiyiniz təqdirdə, Məhkəmə şikayətinizi siyahıdan çıxara bilər; o hesab edə bilər ki, Siz işiniz üzrə icraatı davam etdirmək niyyətində deyilsiniz. Məhkəmə şikayətinizi həmçinin işin dostcasına həlli və ya bir tərəfli bəyanat nəticəsində siyahıdan çıxara bilər.

**Yuxarıdakıları nəzərə alaraq, Məhkəmənin sorğularını vaxtında cavablandırmalısınız. Əks halda, Məhkəmə hesab edə bilər ki, siz işiniz üzrə icraatın davam etdirilməsində maraqlı deyilsiniz və buna görə də, şikayətinizi məhkəmə işləri siyahısından çıxara bilər və ya dosyenizi bağlaya bilər.**

### ➡ İş qəbuledilməz elan edilir

Məhkəmənin qəbuledilənlik meyarlarından birinə cavab vermədiyiniz təqdirdə, Məhkəmə ərizənizi qəbuledilməz elan edəcək və bu qərardad qəti olacaq.

## 2. Qərar çıxarılır

Ərizəniz qəbuledilməz elan edilmədiyi təqdirdə, Məhkəmə işinizə baxaraq Konvensiyanın heç bir pozuntunun olmadığını və ya əksinə hüquqlarınızın pozulduğunu müəyyən edə bilər. Pozuntu müəyyən olunduğu halda, Məhkəmə sizə kompensasiya təyin edə bilər. Bununla belə, nəzərə alın ki, Məhkəmə heç bir halda milli məhkəmənin qərarını ləğv etməyəcək.

Qərar Komitə tərəfindən çıxarılırsa, qəti hesab olunur və ondan şikayət vermək qeyri-mümkündür. Palatanın qərarı çıxarıldıqdan 3 ay sonra qüvvəyə minir. Bu 3 ay ərzində siz və ya cavabdeh Hökumət işin yenidən baxılması üçün Böyük Palataya göndərilməsini xahiş edə bilərsiniz. Nəzərə alın ki, Məhkəmə belə müraciətləri yalnız müstəsna hallarda qəbul edir. Böyük Palatanın qərarları qəti hesab edilir və onlardan şikayət verilə bilməz.

Pozuntunu müəyyən edən qərar qüvvəyə mindikdən sonra, Məhkəmə işi Məhkəmə qərarlarının icrasına nəzarətə görə məsul orqana - Avropa Şurasının Nazirlər Komitəsinə göndərir. Bununla da işin Məhkəmədə baxılması başa çatır.

**Nəticə etibarilə, Məhkəməyə ərizə təqdim etdikdə qəbuledilənlik meyarlarına cavab verməlisiniz. Əks təqdirdə, Məhkəmə şikayətlərinizi araşdırmadan ərizənizi rədd etmək məcburiyyətində olacaq.**

**Bundan əlavə, Məhkəmə ərizənizi qəbuledilməz elan etdiyi halda, həmin qərardad qətidir və siz işinizi yenidən açmaq və ya eyni şikayət ilə bağlı yeni ərizə təqdim etmək imkanına malik olmayacaqsınız.**

# FAYDALI MƏLUMATLAR

- **Anonimlik**

  Məhkəmə qarşısında icraatla bağlı sənədlər ictimaiyyət üçün açıqdır. Anonimliyinizi qorumaq istəyirsinizsə, ərizə formasını doldurarkən bunu qeyd etməli və kimliyinizi nə üçün gizli saxlamaq istədiyinizi bildirməlisiniz.

- **Dostcasına həlletmə**

  Məhkəmə ərizənizi qəbuledilən hesab etdiyi təqdirdə cavabdeh Hökumət və sizin aranızda razılıq - dostcasına həlletmə - əldə etməyə çalışacaqdır. Dostcasına həlletmə mümkün olmadıqda, məhkəmə şikayətinizi araşdıracaq və qərar çıxaracaq.

- **Birtərəfli bəyanat**

  Dostcasına həlletmə təklifini əsaslandırmadan rədd etdiyiniz halda, Məhkəmə Konvensiyanın pozulduğun təsdiqləyən və zərərin əvəzinin ödənilməsinə dair öhdəlik götürməsi barədə Hökumətin bəyanatından sonra şikayətinizi məhkəmə işlərinin siyahısından çıxara bilər.

- **Müvəqqəti tədbirlər**

  Bilavasitə təhlükədə olduğunuz və ya səhhətinizə qarşı ciddi təhlükə olduğu halda – məsələn, göndəriləcəyiniz ölkədə işgəncələrə məruz qalacağınıza dair risk mövcuddursa, müvəqqəti tədbirlərin tətbiq edilməsi ilə bağlı müraciət edə bilərsiniz.

# TEZ-TEZ VERİLƏN SUALLAR

- **Məhkəməyə müraciət edirəmsə, bu, milli məhkəmələrin çıxardığı yekun qərara riayət etməli olmadığımı bildirirmi?**

  Xeyr, Məhkəməyə şikayətin təqdim olunması icraatı dayandırmaq təsirinə malik deyil. Strasburq Məhkəməsinə şikayətin təqdim edilməsi sizi milli məhkəmələrin yekun qərarlarına riayət etməkdən azad etmir.

- **Məhkəmə vəkil axtarışında mənə yardım edə bilərmi?**

  Xeyr, Məhkəmə sizə vəkil axtarışında yardım edə bilməz. Yerli Vəkillər Kollegiyası ilə əlaqə saxlayın və onlardan üzvlərinin siyahısını təqdim etməyi xahiş edin.

- **Məhkəmə ərizə formasının doldurulmasında mənə yardım edə bilərmi?**

  Xeyr, Məhkəmə sizə ərizənin doldurulmasında yardım edə bilməz. Məhkəmə icraatın bütün mərhələlərində neytral qalmalıdır. Bu səbəbdən, Məhkəmə sizə yalnız internetdən əldə edə biləcəyiniz və şikayətin təqdim edilməsi üçün zəruri olan bütün sənədlərin və məlumatların daxil olduğu ərizə paketinə yönləndirməklə yardım edə bilər.

- **Hüquqi yardım sistemi mövcuddurmu?**

  Bəli. Lakin siz icraatın ilkin mərhələsində hüquqi yardım tələb edə bilməzsiniz; bu, yalnız müvafiq cavabdeh Hökumətə işiniz barədə məlumat verildikdən sonra mümkündür. Həmçinin nəzərə alın ki, hüquqi yardım müraciət edən bütün şəxslər üçün avtomatik olaraq təmin edilmir.

- **Əgər mən şəxsən Məhkəməyə getsəm, işimi birbaşa olaraq izah edə bilərəmmi və ya işimə daha tez baxılması üçün hər hansı tədbir görə bilərəmmi?**

  Qətiyyən, xeyr. Məhkəmədə icraat yazılı qaydada aparılır və sizin Məhkəməyə şəxsən getməyiniz heç bir fayda verməyəcək. Bu, sizin üçün sadəcə vaxt itkisi olacaq.

## Məhkəmə mənə hüquqi məsləhət verə bilərmi?

Öz ölkənizdə mövcud olan hüquqi prosedurlar və ya həyata keçirməli olduğunuz tədbirlər barədə sizə hüquqi məsləhət vermək Məhkəmənin səlahiyyətinə daxil deyil. Strasburq Məhkəməsindəki icraata gəldikdə isə, bütün zəruri məlumatlar Məhkəmənin internet saytında yerləşdirilən sənədlərdə ətraflı şəkildə izah olunur. Məhkəmə ərizənizin nə dərəcədə uğurlu olacağını söyləyə bilməz; siz sadəcə qərardadın və ya qərarın çıxarılmasını gözləməlisiniz.

## Məhkəmə əleyhinə şikayət təqdim etdiyim ölkəyə qarşı hər hansı tədbir görə bilərmi?

Xeyr. Məhkəmə əleyhinə şikayət təqdim etdiyiniz hakimiyyət orqanlarına qarşı sizin adınızdan heç bir tədbir görə bilməz. Bununla belə, müstəsna hallarda, Məhkəmə işə baxana qədər milli hakimiyyət orqanlarından müəyyən tədbirlər görməyi və ya müəyyən hərəkətlərdən çəkinməyi  tələb edə bilər (bu əsasən ərizəçinin ciddi fiziki zədə almaq riski mövcud olduğu hallarda mümkündür).

## Məhkəmə mənim işimə oxşar Məhkəmə işlərinə baxıbmı?

Məhkəmənin qərarları onun internet saytında yerləşdirilir. Mövcud qərarlar arasında axtarış apararaq Məhkəmənin sizin işinizə oxşar işə baxıb-baxmadığı barədə məlumat əldə edə bilərsiniz.

## Ərizəm qəbuledilməz elan edilibsə, bu qərardan şikayət verə bilərəmmi?

Qəbuledilməzlik barədə qərardadlar qətidir və onlardan şikayət verilə bilməz. Bu, ərizəçilərin Məhkəməyə müraciət etməzdən əvvəl ərizənin bütün qəbuledilənlik meyarlarına cavab verdiyinə əmin olmalarının vacibliyini göstərir.

## İşim barədə məlumatı necə əldə edə bilərəm?

Məhkəmə həllini gözləyən işlərin gedişatı ilə bağlı məlumat tələb edən bütün sorğuları cavablandırmaq imkanına malik deyil. Məhkəmədəki icraat yazılı qaydada aparıldığından, Məhkəmə əlavə məlumata ehtiyac olduqda və ya icraatın başqa mərhələlərində sizinlə yazılı qaydada əlaqə saxlayacaq. Məlumatları həmçinin Məhkəmənin internet saytından əldə etmək mümkündür (kommunikasiya, tərəflərə verilən suallar, qəbuledilənlik ilə bağlı qərardadlar və s.).

# Sizin AİHM-ə ərizəniz:

## Necə müraciət etməli
## və ərizənizə necə baxılır

European Court of Human Rights
Council of Europe
F-67075 Strasbourg cedex

www.echr.coe.int

AZE

Design: © ECHR - Photo: © Shutterstock